**_Oqtay RZA_**



# "ADLI, ÜNVANLI MİSRALAR"

**Səsi gəlib ilk dəfə**
**Qədim Mildən, Muğandan;**
**Söz çələngi göndərib,**
**Eşq, məhəbbət bağından.**
**İndi baxır qürurla,**
**Yaşın uca dağından.**
**Çox şeiri-müəmma,**
**Amma özü sadədir;**
**Tanıyın bu şairi-**
**Qəşəm Nəcəfzadədir!**

**Xəzər kimi qabaran**
**Sinəsi sözlə dolu;**
**Türkiyədən, İrandan,**
**İraqdan keçib yolu.**
**Xocalı müsibəti,**
**Ürəyində zədədir;**
**Tanıyın bu şairi-**
**Qəşəm Nəcəfzadədir!**

**Atasıdır gənc yazar**
**Kəramət Böyükçölün;**
**keşiyində dayanar,**
**Hər yarpağın, hər gülün.**
**Üzündən öpmək üçün,**
**Cərgə-cərgə düzülün!**
**Əlindəki həm qələm,**
**Həm də dolu badədir;**
**Tanıyın bu şairi-**
**Qəşəm Nəcəfzadədir!**

Ədalət 2019.- 17 may.- S.8.